# "YAXŞILIQLAR SULTANI"

**Bu günlərdə dəyərli həmkarım Rafiq Nazimoğlu mənə özünün bir kitabını hədiyyə etdi. Kitab "Ecoprint" nəşriyyatında işıq üzü görüb və bu ilin qələm məhsulu olan kitabın redaktoru professor Allahverdi Eminovdu. Təbii ki, mən kitabı vərəqləyəndə ilk diqqətimi çəkən kitabdakı Ön söz, yəni professor Ramiz Əkbərin düşüncələri oldu.**




**Ramiz müəllim bu kitab haqqında fikirlərini oxucularla bölüşərkən vurğulayıb ki, "müəllif fikri zaman çevrilməsindən çox həyat-taleh israrına yönəlmə ilə diqqətə çəkir. Bunu bir sıra səbəblə əlaqələndirə bilərik". Bax, elə mən də müəllifin bu yanaşmasının özünün kitabda necə təqdim etdiyini görmək üçün Mikayıl İsmayıl oğlu İsmayılovun həyat fəaliyyətindən bəhs edən bu mənzum poemanı sona qədər oxudum.**

Kitabı oxuduqca da gözlərimin önündə Mikayıl İsmayılovun həyat yolu canlandı. Beləcə, prezident təqaüdçüsü, şair-alim Rafiq Nazimoğlunun Ağsu rayonunun Çiyni kəndində doğulmuş bir ziyalının, bir şirkət əməkdaşının nə qədər savab işlərə imza atdığını mən də öyrəndim və mənim üçün ən maraqlısı bu oldu ki, Rafiq Nazimoğlu bu poemanı oxucu ilə söhbət edə-edə qələmə alıb. Yəni onun poemanın nəzm və nəsrlə əlaqəli şəkildə araya-ərsəyə gətirməsi epik-lirik janrın yaxşı bir nümunəsi təsirini yaratdı məndə. Bir oxucu kimi gördüm ki, Rafiq Nazimoğlu bu kitab üzərində işləyərkən kifayət qədər bilgilərə yiyələnib. Həm Azərbaycan, həm də dünya ədəbiyyatını xeyirxahlıqla, insanlıqla, savabla bağlı mükəmməl fikirlərini iqtibas kimi oxucuya təqdim etməklə poemanı daha da təsirli edibdir.

Onun poemanın müxtəlif məqamlarında vurğuladığı poetik fikirləri həqiqətən öz qəhrəmanına olan böyük sevgisinin tərənnümüdür. Şair yazır:

**Yaxşı insan pak səmadı,**
**Demə yaxşı insan hanı?**
**Yaxşılıqlar sultanıdır,**
**Poemamın qəhrəmanı.**

Və yaxud:

**Ətrafına baxmayaraq o, məkri,**
**İman ilə sığallayır hər zikri.**
**Cəsarətlə deyəcəyəm bu fikri:**
**Ruzi verən bir torpaqdı Mikayıl!**

Bu misralardan da göründüyü kimi, kitabın qəhrəmanı torpağını sevən, torpağına, millətinə şərəf gətirən Azərbaycan oğludur.

Poemanın hər bir misrasında, hər bir nəsr bölümündə şair öz qəhrəmanını müxtəlif aspektlərdən oxucuya daha yaxından tanıdır. Onun öz kəndi, öz el-obası üçün gördüyü işləri tərənnüm edib. Zənnimcə, bu təkcə şairin öz poetik düşüncələrini bölüşməsi yox, onun həm də Azərbaycanın xeyirxah bir övladını hər kəsə tanıtmaq istəyindən irəli gəlir.

Yeri gəlmişkən onu da vurğulayım ki, poemada şair qəhrəmanının tərcümeyi-halının bir növ sözlə şəklini çəkir, onun valideynlərinin, doğmalarının, o cümlədən doğulduğu kəndin cizgilərini bizlərə pıçıldayır. Düşünürəm ki, bu poema ilə Rafiq Nazimoğlu özü də bir savab işə imza atıb. Və onun öz misraları ilə demək istəyirəm ki:

**Həyat bəzən acıdır,**
**Adamlar qəm yeyərlər.**
**Bir insan ki ucaldır,**
**Ona uca deyərlər.**

Bəli, bu kitabı oxumaqla siz də bir xeyirxah ünvandan xəbər tutmuş olacaqsız. O ünvanın adı Mikayıl İsmayıl oğlu İsmayılovdu!

**Əbülfət MƏDƏTOĞLU**

Ədalət.-2016.-27 oktyabr.-S.3.